# ƏZƏMƏTLİ, BƏNZƏRSİZ ŞƏXSİYYƏT

*Xalqların və millətlərin taleyində, formalaşmasında, dünyadakı yerinin müəyyənləşməsində tarixi şəxsiyyətlərin, dahi siyasətçilərin və müdrik dövlət başçılarının müstəsna rolu danılmazdır. Bəşəriyyətin yetirdiyi Heydər Əliyev kimi nadir dühalar isə özləri bütöv bir salnamə, tarix yaratmağa və onun gedişatını nizamlamağa qadir olurlar. Ulu öndərimizin Azərbaycanın müdrik rəhbəri kimi çoxşaxəli fəaliyyəti, Vətən və xalq qarşısındakı ölçüyəgəlməz misilsiz xidmətləri böyük şəxsiyyətlərin tarixin gedişində həlledici rol oynadıqlarını əyani şəkildə təsdiqləyən ən dəyərli nümunələrdəndir. Öz fəaliyyəti, həyatı və xalqı naminə göstərdiyi xidmətlərinə görə tariximizdə dərin iz buraxmış dahi şəxsiyyətin - Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlər birmənalı olaraq böyük quruculuq illəri, Azərbaycanın hərtərəfli və sürətli tərəqqi mərhələsi kimi səciyyələndirilir. Azərbaycanın müasir tarixinə nəzər salarkən aydın görünür ki, ölkənin və xalqın ən çətin anlarında Heydər Əliyevə ehtiyac duyulub və üzərinə düşən böyük missiyanı uğurla yerinə yetirən ulu öndərimiz hər zaman ona bəslənilən ümidləri layiqincə doğrulda bilib.*

1969-cu il iyul ayının 14-dən başlayaraq Azərbaycana yüksək səviyyəli rəhbər və dünya miqyaslı siyasi xadim kimi nadir keyfiyyətləri özündə birləşdirən 46 yaşlı Heydər Əliyev rəhbərlik etməyə başladı. Heydər Əliyev sovet dövlət sistemində xüsusi nüfuzu ilə seçilən Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbəri səviyyəsinə qalxmış yeganə azərbaycanlı olmaqla yanaşı, respublikanın problemlərini dərindən bilir, o dövrün hakimiyyətdaxili çəkişmələri haqda kifayət qədər məlumata malik idi. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyə irəli çəkilməsi onu deməyə tam əsas verir ki, bu böyük dövlət xadiminin hakimiyyətə gəlişi mühüm tarixi zərurətdən yaranmışdı. Heç də təsadüfi deyil ki, bu illər tariximizin Heydər Əliyev dövrü adlandırılır.

Ulu öndərimizin Azərbaycanda hakimiyyətə gəlişi ilə çağdaş tariximizdə keyfiyyətcə yeni epoxanın, Azərbaycanı müstəqil dövlət qurmağa doğru aparan böyük yolun başlanğıcı qoyuldu. Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 70-80-ci illər respublikamızın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, sosial-iqtisadi və mədəni sahələrdə aparılan dərin islahatların xarakterinə, xalqın maddi rifah halının yaxşılaşdırılmasına və yeni mərhələyə keçirilməsinə görə həmin illər müasir tariximizdə ən mühüm yerləri tutur.

Xatırladaq ki, zəngin təbii sərvətə, elmi-texniki potensiala malik Azərbaycan ötən əsrin 60-cı illərinin sonlarında özünün sosial-iqtisadi inkişafına görə keçmiş müttəfiq respublikaları arasında axırıncı yerlərdən birini tuturdu. Ölkənin siyasi-iqtisadi həyatında yaranmış tənəzzül xalqın mənəvi-psixoloji durumuna da mənfi təsir göstərirdi. Milli kadrların hazırlanması, ana dilimizin inkişaf etdirilməsi yönümündə heç bir ciddi addımlar atılmır, əksinə, edilən təşəbbüslərin qarşısı alınırdı. Məhz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi respublikada mövcud olan mürəkkəb və çətin duruma son qoydu.

O dövrdə Azərbaycan KP MK-nın ilk plenumlarından biri cəmiyyətdəki mənfi hallara qarşı mübarizə, həyatın bütün sahələrində sosial-iqtisadi mühitin sağlamlaşdırılması tədbirlərinə həsr olundu. Bu, millətin gələcək liderinin qarşıdakı bir çox illər üçün xalqın etimadını qazanmaq yolunda atdığı ilk addım idi. Heydər Əliyev 14 il Azərbaycan KP MK-nın birinci katibi oldu. Bu vəzifədə onun yüksək təşkilatçılıq bacarığı, islahatçı dövlət xadimi kimi istedadı özünün parlaq təcəssümünü tapdı. Həmin illər respublikanın simasını dəyişdirmiş əsl quruculuq illəri idi. İlk növbədə, respublikada iqtisadiyyatın sənaye bazasının genişləndirilməsi və müasirləşdirilməsi siyasəti həyata keçirilməyə başladı. Bunun nəticəsində bir tərəfdən Azərbaycanın iqtisadi potensialının qat-qat güclənməsi, digər tərəfdən isə onun əvvəlcədən formalaşmış xammal bazası yönümünün dəyişdirilməsi prosesinə təkan verildi. 70-80-ci illərin əvvəllərində yaradılmış çoxsaylı sənaye müəssisələri, həmin dövr üçün ən müasir texnologiyalara əsaslanan istehsal sahələri Azərbaycanın iqtisadi infrastrukturunu köklü surətdə dəyişdirdi. Aqraryönümlü respublikadan inkişaf edən sənayeyönümlü respublikaya çevrilməsinə real zəmin hazırlandı.

**Ümummilli Liderimizin 1969-cu ildə Azərbaycanda ali hakimiyyətə gəlişi çoxəsrlik dövlətçilik tariximizdə yeni epoxanın təməlini qoydu**

Mütəxəssis kadrların hazırlanmasına gündəlik diqqət yetirilir, hər il minlərlə gənc SSRİ-nin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilirdi. Ölkə rəhbəri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1971-ci ildə Bakıda milli hərbi kadrların hazırlanması işinin əsası qoyulmuş, Cəmşid Naxçıvanski adına Hərbi Məktəb açılmışdı. Elə həmin illərdə yenidən təşkil olunmuş Ali Ümumqoşun Komandirlər Məktəbi suveren Azərbaycanın Milli Ordusu üçün hərbi kadrlar yetişdirən əsas təsisatlardan birinə çevrilmişdir.

Sovet dövlətinin görkəmli rəhbərlərindən biri kimi Heydər Əliyev ona tapşırılmış məsul sahələrin öhdəsindən bacarıqla gəlirdi. İşinin həddən ziyadə çox olmasına baxmayaraq, o, doğma Azərbaycanın problemlərilə də maraqlanmağa imkan tapırdı. Özünün yorulmaz fəaliyyəti, böyük iş qabiliyyəti ilə Heydər Əliyev nəinki Azərbaycan xalqının dərin məhəbbət və hörmətini qazanmış, ittifaqda yaşayan bütün xalqların da xatirəsində xoş izlər buraxmışdır.

XX əsrin üçdəbirini milli lider və rəhbər kimi millətinə xidmət edən, ömrünü xalqın yolunda şam kimi əridən Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi, demokratik, hüquqi dövlət quruculuğu istiqamətindəki fəaliyyəti, ölkənin davamlı inkişafındakı rolu əvəzsizdir. 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə respublikada ictimai-mənəvi durumu səciyyələndirən bütün bu gerçəkliklər əslində, daha böyük niyyətlərinə - milli ruhun inkişafına, milli özünüdərkin və milli qürurun yüksəlməsinə, gələcəkdə müstəqil Azərbaycan dövlətinin yaranmasına xidmət edən əzəmətli planın tərkib hissəsi idi.

Ulu öndərimiz milli ruhun dirçəlməsinə, Azərbaycan mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail olmaqla yanaşı, həm də ziyalıların, xalqın müxtəlif təbəqələrinin diqqətini tarixi və mədəni qaynaqlara yönəltdi. 70-80-ci illər Azərbaycan ədəbiyyatı, musiqisi, memarlığı, incəsənəti və mədəniyyətinin sözün əsl mənasında, intibah dövrü idi. Milli özünüdərk ruhunun güclənməsi istiqamətində həmin illərdə görülmüş işlər sonrakı mərhələlərdə öz bəhrəsini vermiş, keçmiş SSRİ-nin dağılması ərəfəsində Azərbaycanda milli müstəqillik ideyalarının daşıyıcısı olan böyük bir zümrə yetişmişdi.

Heydər Əliyev fenomeninə ehtiyac Azərbaycan müstəqil dövlət kimi özünü elan etdikdən sonra daha aydın hiss olunmaqda idi. Müstəqil Azərbaycanda yaşanan siyasi qeyri-sabitlik, hakimiyyət dəyişiklikləri, iqtisadi tənəzzülün dərinləşməsi, xaos və anarxiyanın idarəçilik sistemini bütünlüklə iflic etməsi, erməni işğalçıları ilə müharibədə acı məğlubiyyətlər, ölkənin xaricdən təcrid olunması Heydər Əliyev fenomeninə ehtiyacı qaçılmaz edirdi. Getdikcə daha çox insan anlayırdı ki, zamanında müstəqillik məfkurəsinin möhkəmlənməsinə müstəsna töhfələr verən Heydər Əliyev indi qazanılmış müstəqilliyin qorunub saxlanmasının yeganə qarantı ola bilər. Ensiklopedik biliyə, sarsılmaz iradəyə və ölçüyəgəlməz milli ruha malik olan Heydər Əliyev Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə öz xalqının iradəsinə, təkidli xahişlərinə cavab olaraq 1993-cü ildə ölkə rəhbərliyinə qayıtmaqla respublikamızın dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasına, vətəndaş müharibəsinin qarşısının alınmasına, Azərbaycanın dövlət müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə, dövlətimizin beynəlxalq aləmdə uğurlar qazanmasına nail olmuşdur. Bu, sözün əsl mənasında, Heydər Əliyev ömrünün yeni bir qəhrəmanlıq tarixi idi. Vətənini və xalqını sonsuz məhəbbətlə sevən, andına, sədaqətinə sadiq olan, qətiyyəti, inamı, müdrikliyi ilə milyonları öz ətrafında birləşdirməyi bacaran, hadisələri düzgün qiymətləndirib reallıqlardan lazımi nəticə çıxaran Heydər Əliyev kimi nəhəng vətənpərvər şəxsiyyət, siyasətçi yalnız bu tarixi yarada və yaza bilərdi. Heydər Əliyev fəaliyyətinin 1993-2003-cü illəri də bir ömrün qızıl salnaməsidir. Azərbaycanda müstəqil dövlət təsisatlarının yaradılması, demokratik, hüquqi dövlət quruculuğunun əzmlə həyata keçirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təminatı və yeni iqtisadi kursun müəyyənləşdirilməsi şəxsən Heydər Əliyevin xalqı qarşısındakı əvəzsiz xidmətləridir. Heydər Əliyev nəinki müstəqilliyimizi qoruyub saxladı, onu əbədi və dönməz etdi. Zamanın bu dahi şəxsiyyətə, onun dərin zəkasına, polad iradəsinə, zəngin təcrübəsinə və hədsiz vətən sevgisinə etibar etdiyi tarixi missiyanı layiqincə yerinə yetirməyə müvəffəq oldu.

**Emin QASIMOV,**
**"Respublika".**

Respublika .- 2022.- 14 iyul.- S.3.